Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər Seriyası 2019-№2 Серия общественно-политических наук

**Ağayeva Həlimə Ağaşükür qızı**
**Ağakişiyeva Şükufə Məhəmməd qızı**
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
halima.aghayeva@sport.edu.az

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ İSTİFADƏ EDİLƏN LİNQVİSTİK VASİTƏLƏR

***Açar sözlər:*** *Azərbaycan dili, linqvistik vasitələr, nitq , təlim, təhsil*
***Ключевые слова:*** *Азербайджанский язык, языковые средства, речь, обучение, воспитание*
***Key words:****Azerbaijani language, linguistic means, speech, training, education*

Ümumtəhsil məktəblərində aparılan kurikulum islahatı bütün fənlərin, o cümlədən “Azərbaycan dili” fənninin məzmunca yenidən işlənməsinə gətirib çıxardı. İstər ibtidai, istər orta, istərsə də tam orta təhsil səviyyəsində gözlənilən ümumi nəticələr fonunda konkret siniflər üzrə standartlaşdırılmış bacarıqların verilməsi fənnin məzmununu müəyyənləşdirməyə imkan yaratdı. Təlim prosesi şagirdlərin dil və nitq fəaliyyətini müvafiq istiqamətlər üzrə qurmağa nail oldu. Təhlil göstərdi ki, dilin daxili quruluşu ilə bağlı linqvistik bilik və bacarıqların formalaşdırılmasını önə çəkən ənənəvi məzmundn fərqli olaraq yeni modeldə işlənilmiş bu məzmun şagird nitqinin fəaliyyət növlərinə uyğun inkişafına və praktik mahiyyət daşıyan ən zəruri dil fakt və hadisələrinin mənimsənilməsinə yönəldilib. Beləliklə dilə yiyələnmə şagirdin oxu və ya müşahidə vasitəsilə öyrəndiklərini, düşündüklərini şifahi və yazılı şəkildə ifadə etmə, başqaları ilə ünsiyyət qurma bacarıqlaının sinifdən sinfə təkmiləşməsini, son nəticədə isə nitq mədəniyyətinin formalaşmasını bir məqsəd kimi həyata keçirir. Yeni proqramda dəyişməz istiqamətlər üzrə biri digərini tamamlayan və inkişaf etdirən alt standartlar şəklində verilsə də, təcrübə göstərir ki, təhsil səviyyələrinin özünəməxsus xüsusiyyətlərini nəzərə almadan müvafiq dərsliklərdə onun optimal variantda işlənilməsinə nail olmaq mümkün deyil.

Kurikuluma görə isə leksikanın əsas elementləri (sözün leksik və qrammatik mənası, məcazi mənalanma, çoxmənalılıq, omonim, sinonim, antonim, arxaizmlər və frazeoloji birləşmələr) beşinci sinifdə “Niyə belə deyirik” bölməsindəki mətnlə kontekstində tədris olunur. Dərslikdəki söz ehtiyatları istiqaməti üzrə işlər birbaşa

şagirdlərin lüğət fondunun zənginləşməsinə və leksik bacarıqların formalaşmasına hesablanmışdır.

Bundan əlavə mətn nümunələrinin seçimində dil və üslub məsələləri vacib element kimi götürülməlidir. Belə ki, təqdim edilən materialın lüğət tərkibi və qrammatik quruluşu şagird üçün sadə və anlaşıqlı olmalıdır. Görkəmli alim B.Əhmədov Azərbaycan dili təlimində aşağıdakı 3 metodik prinsipə istinad edilməsini məqsədəuyğun sayır:

1)dil təliminin semantik-qrammatik prinsip üzərində qurulması;

2) təlimdə dilin nəzəri məsələlərinin şagirdin nitq praktikası zəminində şərh edilməsi;

3) təlimdə dilin vahid strukturasının mühafizə olunması, yəni dilin bütün komponentlərinin, nitqin növ və formalarınını qarşılıqlı əlaqədə götürülməsi, fənlərarası əlaqəyə diqqət yetirilməsi (5, s.68-74).

Digər görkəmli alimimiz Ə.Əfəndizadə isə ümumdidaktik mahiyyət daşıyan prinsiplərin dil təlimində spesifikləşmə xüsusiyyətindən çıxış edərək onları aşağıdakı kimi qruplaşdırır:

1) Azərbaycan dili kursunda bölmələrin bir-biri ilə əlaqələndirilməsi prinsipi:

2) Azərbaycan dili üzrə nəzəri biliklər əsasında bacarıq və vərdişlərin formalaşdırılması prinsipi;

3) Şagirdlərin dil duyumunun inkişaf etdirilməsi prinsipi;

4) Azərbaycan dili təlimində şifahi və yazılı nitqin qarşılıqlı əlaqəsinə əsaslanma prinsipi;

5) Təlim prosesində nitqin düzgünlüyü, dəqiqliyi və ifadəliliyinin gözlənilməsi prinsipi (1, s.5-6)

Azərbaycan dili təliminin məzmununu və təşkilinin əsas istiqamətlərini müəyyənləşdirməyə xidmət edən bu prinsipləri birləşdirən başlıca cəhət dillə nitqin, nəzəri məlumatlarla praktikanın, dilin daxili quruluşunu əks etdirən bölmələrin, eləcə də nitqin şifahi və yazılı formalarının qarşılıqlı əlaqədə götürülməsidir. Qeyd edilən müsbət xüsusiyyətlərə baxmayaraq, bu prinsiplər əsasında işlənilən təlim materiallarında nəzəri biliklərin aşılanması praktik vərdişlərin formalaşması ilə müqayisədə önə çəklir. Linqvistik anlayışların şərhinə isə nitq bacarıqlarının formalaşmasına xidmət edən bədii mətn nümunələrindən daha geniş yer verilirdi. Bunun nəticəsidir ki, dil haqqında normativ qaydalar çərçivəsində müəyyən biliklər qazanmış ümümtəhsil məktəbini bitirən şagirdlərin şifahi və yazılı nitq bacarıqları qoyulan tələblər səviyyəsində inkişaf etmirdi (2).

Asif Hacıyev yazır: "Buna görə də təlimin məzmunu şagirdlərin hərtərəfli nitq mədəniyyətinin formalaşmasına xidmət edən ən zəruri bacarıqlar üzərində qurulmuşdur ki, onları səciyyəvi xüsusiyyətlərinə görə 3 qrupa ayırmaq olar: 1) nitq bacarıqları; 2) dil bacarıqları; 3) linqvistik bacarıqlar.

Əgər nitq bacarıqları ünsiyyət prosesində qazanılan və müəyyən əməliyyatlar, təmrinlər vasitəsilə avtomatlaşan qabiliyyətləri əhatə edirsə, dil bacarıqları intuitiv şə-

kildə insana verilmiş, lakin müşahidə və mütaliə vasitəsilə dərinləşdirilən qabiliyyətləri əhatə edir. Nitq bacarıqları şifahi ünsiyyətdə, dil bacarıqları isə yazı prosesində daha aydın özünü göstərir. Ölkəmizdə Azərbaycan dilinin inkişafına və zənginləşməsinə dövlət qayğısı və geniş imkanlar yaradıldığı bir şəraitdə Azərbaycan dilinin tədrisi ilə bilavasitə məşğul olanların üzərinə böyük vəzifələr düşür. Dilçi alim Tofiq Hacıyev yazır: " Bu gün şagird şəxsiyyətinin formalaşmasında, onun milli mənlik hissinin, dünyaya baxışının, ən başlıcası vətəndaşlıq təfəkkürünün yaranması xüsusi əhəmiyyət kəsb edir. Böyük dünyaya özünün milli mentalitet çərçivəsindən baxmaq, hər şeyi müasir cizgilərlə görə, dərk edə bilmək mühüm bacarıqlar hesab olunur. Azərbaycan dili özünün bütün imkanları ilə xalqımızın tarixi boyu ona sirdaşlıq etməklə həm özünün tarixi, həm də sosial-kommunikativ funksiyasını qoruyub saxlayıb, nəsillərin yaddaşında qalanları nəsillərə ötürübdür" (4, s.5).

Dil təlimi təcrübələrinə istinad etsək, belə qənaətə gəlmək olar ki, Azərbaycan dilinin tədris edilməsində şagirdlərin nitq mədəniyyətini formalaşdırmaqla yanaşı, dil quruculuğu ilə bağlı onların təfəkkürünü cilalamaq əsas tələblərdən hesab edilir. İndi də bu tələblər Azərbaycan dili təliminin leytmotivini təşkil etməklə uğur qazanıb.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə də biz bu dildə danışdığımıza görə öz dilimizin zənginliyini və gözəlliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu, həqiqətdir. Ona görə də bunu heç bir şeyə dəyişmək olmaz. ... Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini , dövlət dilini mükəmməl bilməlidir. Gənclərə tövsiyyə edirəm ki, əgər kiminsə bu barədə çatışmazlığı varsa, çalışın, bunu aradan qaldırın. Xarici ölkələrdə təhsil alarkən , həmin ölkənin dilini öyrənərkən, eyni zamanda başqa dilləri öyrənərkən öz dilinizi heç vaxt unutmayın və öz ana dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz" (2).

İbtidai siniflərdə Azərbaycan dili inteqrativ fənn kimi nəzərdə tutulur. Buna görə də şagirdlərin nitq bacarıqlarının inkişafı və dünyagörüşlərinin artırılması dilin daxili quruluşunu əks etdirən sadə qaydaları öyrənməyə xidmət edən bədii və elmi-kütləvi mətnlərə istinad edilərək yerinə yetirilir. Bunun üçün də ibtidai siniflər üçün işlənmiş Azərbaycan dili dərsliklərində mətn nümunələri üzərində iş həm də dilə aid fakt və hadisələri özündə əks etdirir. Mətnin məzmun və ideyası üzərində iş həm də onun struktur elementlərini təşkil edən abzas, cümlə və söz üzərində işlə tamamlanır. Şagirlərin düzgün, ifadəli və şüurlu oxu bacarıqları mətni təşkil edən dil vahidlərinin məntiqi və qrammatik əlaqəsinin dərki yolu ilə möhkəmləndirilərək formalaşması nisbətən daha çətin sayılan yazı bacarıqlarının və və linqvistik təfəkkürlərinin inkişafı üçün zəmin yaradır. İlk əvvəl sadə görünən bu aydın metodik yanaşmaya baxmayaraq, Azərbaycan dili dərsliklərinin işlənilməsində iki mühüm poblem hələ də mübahisəlidir. Bunlardan birincisi mətn nümunələrinin seçimi, ikincisi isə dil fakt və hadisələrini əks etdirən materialların hansı ardıcıllıqla verilməsidir. Bədii materiallllar nəsr və nəzmin müvaziliyi gözlə-

nilməklə uşaqlara aid şifahi və yazılı ədəbiyyatın ən dəyərli nümunələrinin seçimində dil və üslub məsələləri vacib element kimi götürülməlidir.

Təlim prosesində şagirdlərin təfəkkürünün fəallıq dərəcəsinin çox böyük əhəmiyyəti vardır. Təfəkkürün fəal vəziyyəti qrammatik materialın dərk edilməsi prosesini sürətləndirir, passiv vəziyyət isə ləngidir, çətinləşdirir.

Buradan aydın olur ki, təlim prosesində şagirdlərin təfəkkürünün daim fəallaşdırılmasına xüsusi diqqət lazımdır.

Məktəb təcrübəsi göstərir ki, ibtidai sinif şagirdlərinin təfəkkürü özünəməxsus əlamətlərilə də fərqlənir və dərketmə prosesində özünü qabarıq şəkildə biruzə verir. Təbii ki, ibtidai sinif şagirdlərində təfəkkürün səviyyəsi eyni olmur. "Dərin təfəkkür", "Şərti təfəkkür" anlayışlarının da meydana çıxmasına eləs səbəb budur. Dilçilik elmində onun metodikasında təfəkkür dərinliyi dil, hadisə faktlarının, onların əlaqə və əlamətlərinin dərindən öyrənilməsi bacarığı ilə ölçülür. İbtidai sinif şagirdlərinin təfəkkürünün inkişafında, fikri fəaliyyətində, təlim tərbiyəsində Azərbaycan dili fənninin rolu müstəsna əhəmiyyət kəsb edir. Çünki dil insanın idraki fəaliyyətində böyük əhəmiyyətə malikdir. Həyata hazırlanan hər bir insanın şüurlu fəaliyyəti, ilk növbədə dillə bağlıdır. Dilin və onun qrammatik quruluşunun dərindən mənimsədilməsi təlim prosesinin başlıca vəzifələrindən biridir.

Azərbaycan dili dərslərində şagirdlərin lüğət ehtiyatlarının zənginləşməsi məqsədi ilə Azərbaycan dilinin lüğət zənginliyi barədə məlumat verilməli və belə məşğələlərdə onlar Azərbaycan ədəbi dilinin ümumi lüğətinə əməli surətdə yiyələnməlidirlər. Azərbaycan dili dərslərində şagirdlərin başa düşmədikləri çətin sözləri onlara izah etmək, sözləri quruluşuna görə təhlil edib, onların necə düzəldiyini göstərmək, və bir sıra bu kimi işlər aparılmalıdır. Dil müəllimi şagirdlərə oxuya qarşı sevgi və həvəs oyatmalı, kitab seçməkdə onlara kömək edilməlidir.

Müşahidələr göstərir ki, lüğət ehtiyatlarında kifayət qədər söz olmasına baxmayaraq, onlar nitqində bu sözlərin ancaq bir qismindən səmərəli istifadə edirlər. Lüğət üzrə aparılan işin bir mühüm istiqaməti də şagirdlərin qeyri-fəal lüğət fondunda olan sözləri onun fəal lüğət fondunun malı etmişdir. Lüğətin fəallaşması üzrə işdə bir sıra yol və vasitələrdən istifadə edilir.

- Sözləri müxtəlif birləşmələrdə, müxtəlif mənada işlətmək
- Verilmiş bir və bir neçə sözü cümlədə işlətmək
- Hər hansı mətndəki leksik və frazeoloji vahidləri nitqdə olduğu kimi işlətmək.
- Nitqdə atalar sözü və zərb məsəllərdən istifadə etmək
- Müşahidə və şəkil üzrə nağıl etmək

Dilçiliyin bir sahəsi kimi leksika bir çox alimlərin tədqiqat obyekti olmuşdur. Bu alimlər leksikanən bir sıra ümumi spesifik cəhətlərini araşdırmış, leksik məna qruplarının bəzi xüsusiyyətlərini aydınlaşdırmışdır.

Müasir Azərbaycan dili Azərbaycan xalqının dilidir. Ədəbi dil ümümxalq dilinin ən yüksək mərhələsidir. Bu və ya digər xalqın dili ümumbəşər dilinin bir

formasıdır. Ona görə də ümumbəşər dilinin inkişaf yolları, eyni zamanda ayrı-ayrı xalqların dilinə, həmçinin Azərbaycan dilinə də aiddir.

Öz leksik tutumu etibarilə dillər eyni deyildir. Dil inkişaf etdikcə onun leksik tərkibi də zənginləşir. Leksik tərkibcə müasir Azərbaycan dili zəngin dillərdən biri sayılır. Onun lüğət tərkibi, mənşəyi, təşəkkülü və inkişafı, quruluşu və işlənmə dairəsi eyni səviyyədə deyildir. Ona görə də, bu dilin leksik tutumunu müxtəlif səviyyədə öyrənmək lazımdır.

S. Cəfərov yazır:" Leksikologiya yunanca iki sözdən (lexikos-lüğət və loqos-təlim) ibarətdir. Leksikologiya dilçiliyin bir bölməsi olub, dilin müasir vəziyyətində və eləcə də tarixi inkişaf prosesində lüğət tərkibini öyrənir"(4,s.10).

Hər hansı bir dilin lüğət tərkibini, onun müasir vəziyyətini, əmələgəlmə tarixini və inkişaf yollarını nəzərə almadan, düzgün müəyyənləşdirmədən öyrənmək olmaz. Bunun kimi, lüğət tərkibinin, onun söz qruplarını və leksik kateqoriyaları, onların əlaqə və münasibətlərini, bir sözlə dilin müasir sisteminin vəziyyətini nəzərə almadan öyrənmək qeyri-mümkündür.

Leksikologiyada lüğət tərkibinin ifadəliliyi və üslubi cəhətləri, dildə onun şifahi və yazılı nitqə aid xüsusiyyətlərini əks etdirən üslubi formalar nəzərdən keçirilir. Burada müasir Azərbaycan dilinin leksik tərkibi obndan istifadə baxımından da öyrənilir.

Orta məktəbdə Azərbaycan dili təliminin əsas didaktik vəzifəsi şagirdlərin şifahi və yazılı nitq vərdişlərini inkişaf etdirməkdir. Buna görə də ilk növbədə fonetika, leksikologiya, söz yaradıcılığı, morfologiya, sintaksisdən proqrama daxil edilən və öyrədilən dil qaydalarını nitq inkişafı üçün praktik əhəmiyyəti nəzərə alınmalı, mətn üzrə işlərdə əsas məqsəddən uzaqlaşmamaqla mövzunun tədrisinə ayrılan vaxtdan səmərəli istifadə edilməlidir. Müəllimdərk etməlidirki, hər hansı konkret mövzunu mənimsətmək ümimi işdir və bu ümumi iş nəzdində əsas məqsəd şagirdlərin lüğət ehtiyatını, ədəbi tələffüz, orfoqrafik yazı, cümlə qurmaq və s. vərdişlərindən birini və bir neçəsini inkişaf etdirməkdir (3,s.9).

İnsan öz fikrini cümlələr vasitəsilə ifadə edir. Cümlələr sözlərdən ibarətdir. Odur ki, sözsüz heç bir cümlə təsəvvür etmək mümkün deyildir. Bununla belə, söz də cümlə kimi dilin əsas vahididir. Ona görə də sözün mahiyyətini, onun məzmun aydınlığını və məna dairəsini müəəyyənləşdirmək zəruridir.

Hər hansı bir müəyyən səs tərkibinin sözün leksik vahid olması üçün onun hər hansı bir kollektivin üzvləri tərəfindən anlaşılması, qrammatik cəhətdən formalaşması lazımdır. Odur ki, hər hansı bir sözün həm leksik, həm də qrammatik mənası vardır.

Şagirdlərdə düzgün və dolğun nitq inkişaf etdirmənin böyük əhəmiyyəti vardır. Məktəblərimizin yetişdirdiyi yeni nəsil vətənpərvər insana xas olan böyük məziyyətlərlə birlikdə, şifahi və yazılı nitq mədəniyyətinə də yiyələnməlidir.

Nitq mədəniyyətinin inkişaf etdirilməsindən danışıldıqda, hər şeydən əvvəl biz şagirdləri söz və yazıdan düzgün və dəqiq istifadə etmək bacarığı ilə silahlandırmağı düşünürük. Bütün görkəmli pedaqoqlar şagirdlərin nitq vərdişi qazanma-

sına böyük əhəmiyyət vermiş və verməkdədirlər. Şagirdlərimizin nitq mədəniyyətinə yiyələnmələrinin xüsusi əhəmiyyəti olduğundan, ölkəmizin qabaqcıl metodist və müəllimləri bu vərdişi lazımı keyfiyyət dərəcəsinə yüksəldilməsi üçün yeni-yeni yollar və üsullar düşünürlər. Nitq mədəniyyətinin yüksəldilməsi, fikri ünsiyyətdə olduğu şəxsə, yaxud şəxslərə yığcam, dəqiq və aydın çatdırmaq və eyni zamanda onlara emosional təsir göstərmək üçün dildəki leksik məna daşıyan sözlər kifayət etmir. Bu zaman başqa dil vasitələrinə müraciət etmək lazım gəlir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan" qəzeti. Heydər Əliyevin çıxışı. 31 avqust 1997.
2. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 1996, 312 s.
3. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2003, 425 s.
4. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli 506 nömrəli fərmanı// Təhsil xəbərləri, 2001, № 1, 8-17.
5. Hacıyev A. Ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin məzmunca işlənməsi.Azərbaycan dili və ədəbiyyat tədrisi. Bakı 2014, № 1.
6. Hacıyev T. Dilimiz mənəviyyatımızdır. Azərbaycan dili və ə Bakı 2015, № 1.
7. İsmayılov R. və b. Azərbaycan dili II sinif üçün dərslik. Bakı, Altunkitab, 17. 2014



**Агаева Халима Агашюкюр гызы**
**Агакишиева Шюкюфа Мамед гызы**


**Лингвистические средства, используемые на уроках азербайджанского языка**

**РЕЗЮМЕ**


Обучение азербайджанскому языку является одним из приоритетных вопросов современного образования. Основная цель уроков азербайджанского языка – научить студентов свободно говорить и писать на азербайджанском языке. Правильные навыки разговорной речи у учащихся формируются в результате усвоения грамматических материалов, преподаваемых в общеобразовательных школах. Грамматические определения, правила и законы, разъясненные студентам, направлены на то, чтобы заставить их выучить азербайджанский язык и использовать его самостоятельно.



**Aqayeva Khalima Aqashukur**
**Aqakishiyeva Shukufa Memmed**


**Linguistic means used in Azerbaijani language lessons**

**SUMMARY**


Teaching the Azerbaijani language is one of the priority issues of modern education. The main purpose of the Azerbaijani language lessons is to teach students to speak and write fluently in Azerbaijani. Proper speaking skills in students are formed as a result of mastering grammatical materials taught in secondary schools. The grammatical definitions, rules and laws explained to students aim to make them learn the Azerbaijani language and use it independently.



*Rəyçi: dos. Çimnaz Məmmədova*